Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına müsəlman olmaq üçün gəldim, O mənə: su və sidr ilə yuyunmağımı əmr etdi

Qeys bin Asimdən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: "Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına müsəlman olmaq üçün gəldim, O mənə: su və sidr ilə yuyunmağımı əmr etdi".

[Səhih] [Əbu Davud, Ət-Tirmizi,Ən-Nəsai rəvayət etdi]

Qeys bin Asim (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına müsəlman olmaq üçün gəldiyində, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona su və təmizlik məqsədi ilə istifadə edildiyi və gözəl bir qoxusu olduğu üçün sidir yarpaqları ilə yuyunmasını əmr etmişdir.

http://www.sunnah.global/hadeeth/az/show/65085